Xalq qəzeti 13 yanvar 2023-cü il, cümə S.7.



## Tarixi ilklərimiz...

# “Leyli və Məcnun” – 115 il səhnədə

**Günlərdi ki, hər səhər Azərbaycan Dövlət Opera və Balet Teatrının yanından ötüb işə getdiyim zaman divardakı lövhədə “Leyli və Məcnun” operasının afişasına da rast gəlir, əsas rolların ifaçıları Mənsum İbrahimovla Arzu Əliyevanın şəklinə baxaraq tamaşaya getməyi qərarlaşdırırdım. Hətta səhnə əsəri haqqında müəyyən məlumatlar da toplamışdım. Təəssüf ki, yanvarın 11-i üçün nəzərdə tutulmuş tamaşaya getmək imkanım olmadı, amma qeydlərimi qələmə almağı lazım bildim.**

Məhəmməd Füzulinin poeması əsasında böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yazdığı “Leyli və Məcnun” operası 12 yanvar 1908-ci ildə ilk dəfə Bakıda tamaşaya qoyulub. Librettosunu özü və qardaşı Ceyhunun yaratdığı bu səhnə əsəri müsəlman Şərqində yaranan ilk opera idi. Operanın ilk tamaşasına aktyor və rejissor Hüseyn Ərəblinski quruluş verib. Premyeradan öncə Bakı küçələrinə bu məzmunda ilk afişa vurulub: “Müsəlman dilində əvvəlinci dəfə opera. “Leyli və Məcnun”. Şənbə günü, axşam, yanvarın 12-si “Nicat” maarif cəmiyyətinin dram heyəti tərəfindən mövqe-tamaşaya qoyulacaq”.

Daha əvvələ gedərək xatırladaq ki, 1897-ci ildə görkəmli yazıçı və dramaturq, teatr xadimi Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə Şuşada həvəskar artistlər poemadan bir parçanı – “Məcnun Leylinin məzarı üstündə” səhnəsi nümayiş etdirilmişdi. Həmin tamaşada 12 yaşlı Üzeyir də xorda oxumuş, əsərdən xeyli təsirlənmişdi. Elə bu təsirlənmə də, bəstəkarın özünün etirafına görə, 11 ildən sonra ilk milli operanın yaranması üçün təkan olub.

Qeyd edək ki, opera tamaşasının dirijoru yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev idi. Orkestr Üzeyir bəyin seminariya yoldaşları olan musiqiçilərdən ibarət idi. Muğam hissələrini tarzənlər Qurban Pirimov və Şirin Axundov müşayiət edirdi. Üzeyir Hacıbəyli özü orkestrdə skripka partiyasını ifa etmiş, Məcnun rolunu Hüseynqulu Sarabski oynamışdı. Bakı premyerasından beş il sonra, 1913-cü ilin yayında isə opera bəstəkarın böyüdüyü doğma yurdu Şuşada da səhnələşdirilmişdir.

Sonrakı dövrlərdə opera səhnəmizdə əsərə bir neçə dəfə quruluş verilib və tamaşa daha da təkmilləşib. Elə srağagün bir daha göstərilmiş “Leyli və Məcnun” 2005-ci ildən bəri Əməkdar incəsənət xadimi Hafiz Quliyevə məxsus sonuncu quruluşda təqdim edilməkdədir. Onu da vurğulayaq ki, cari teatr mövsümünü də Opera Teatrı bu əsərlə açmışdı.

Azərbaycan Dövlət Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyevi növbəti uğur münasibətilə təbrik etdik və ürək sözlərini söyləməsini xahiş etdik:

-Bu tamaşamız da böyük anşlaqla keçdi. Ümumiyyətlə, “Leyli və Məcnun” digər tamaşalardan hər zaman fərqlənib. İstər seyrçi izdihamına görə, istərsə də tamaşanın aurasına görə bu əsər onillərdir ki, səhnəyə həvəslə qoyulur və uğur qazanır. Opera sənətimizin ən ünlü nümayəndələri “Leyli və Məcnun”da oynamağı həmişə özləri üçün böyük şərəf biliblər. Bu əsərdə oynamaq hər bir xanəndənin ümdə arzusudur. Bəlkə də bütün biletləri satılan və əlavə bilet axtarılan yeganə tamaşa budur. Hazırda teatra böyük axın var. Biz də çalışırıq ki, sənətsevərlərə teatrımızın adına layiq səviyyədə əsərlər təqdim edək. Yaradıcı heyətimiz bu tamaşaya xüsusi hazırlıq görmüşdü. Özünəməxsus yubiley ovqatı hər kəsin qəlbinə hakim kəsilmişdi. Seyrçilərin də uğurla keçən tamaşadan yüksək zövq aldıqları şübhəsizdir. Çünki məxsusi bir tamaşa və səhnə tabdemi yaranmışdı. Dahi Üzeyir bəyin ölməz musiqisi isə bir daha könülləri fəth elədi. Düşünürəm ki, Mənsum, Arzu, Təyyar və qalan bütün iştirakçılar öz gözəl çıxışları ilə yenidən Üzeyir bəyin də, Məhəmməd Füzulinin də ruhunu şad etdilər.

Bəli, 115 ildən bəri səhnədə olan, lakin təravəti zərrəcə azalmayan, əksinə, daha da cazibədar olan “Leyli və Məcnun” operası milli mədəniyyətimizin şöhrətini artırmaqdadır.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**

